**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№364/8** **09 aprel 2024-cü il**

**2023-cü il ərzində Auditorlar Palatasının üzvləri tərəfindən minimum hədlərə əməl edilməsi vəziyyətinə dair arayış barədə**

"Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyasının (2021-2030-cu illər)" 5.6-cı "Auditor fəaliyyətində şəffaflığın artırılması, dempinq, haqsız rəqabət və korrupsiyaya qarşı mübarizə", 5.8-ci "Auditor xidməti bazarının təşkili və tənzimlənməsi" bölmələrinin, habelə Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 1.3-cü "Auditorların bağladığı müqavilələrin məbləğlərinin və müqavilə üzrə verilmiş rəylərin operativ təhlili və təkliflərin təqdim edilməsi" və Palata Şurasının 2023-cü il 29 noyabr tarixli 360/4 nömrəli "Haqsız rəqabətə qarşı mübarizə üzrə metodik materiallar toplusunun nəşri barədə" qərarının 3.2-ci "Auditorlar Palatasının üzvləri tərəfindən minimum hədlərə əməl edilməməsinin səbəbləri daxil olmuş izahatlar əsasında təhlil olunsun və bu barədə Palatanın rəhbərliyinə arayış təqdim edilsin" bəndlərinin icrasını təmin etmək məqsədilə Palatanın Haqsız rəqabətə qarşı mübarizə idarəsi (R.Cəfərli) və Palatanın Şurası yanında Haqsız rəqabətə qarşı mübarizə üzrə komitə (Q.Əhmədov) tərəfindən 2023-cü il üzrə auditor təşkilatları və sərbəst auditorlar tərəfindən minimum hədlərə əməl edilməsi vəziyyətinə dair aparılmış təhlilin nəticəsi olaraq hazırlanmış arayışı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. 2023-cü il ərzində Auditorlar Palatasının üzvləri tərəfindən minimum hədlərə əməl edilməsi vəziyyətinə dair hazırlanmış arayış nəzərə alınsın (əlavə olunur).

2. Auditorlar Palatasının üzvlərinin böyük əksəriyyəti tərəfindən Palata Şurasının 2022-ci il 03 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri"nə əməl edilməsi müsbət hal kimi qiymətləndirilsin.

3. "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri"nə ötən il ərzində əməl etməyən və barələrində müvafiq qaydada intizam və tənbeh tədbirləri görülmüş adları aşağıda qeyd olunan auditor təşkilatlarının rəhbərləri və sərbəst auditorlar barəsində gələcəkdə belə hallara təkrar yol verdikləri təqdirdə daha sərt intizam və tənbeh tədbirləri görülsün:

Auditor təşkilatları
- "ASON AUDİT" MMC (direktor - Vəkilov Orxan);
- "AZƏRUÇOT" MMC (direktor - Təhməzov Eldar);
- "BKR İŞIK Konsaltinq" MMC (direktor - Şahtaxtinskaya Aysel);
- "Flex Audit" MMC (direktor - Kərimli Rəhman);
- "Financial Academy Audit and Consulting" MMC (direktor - Həsənov Ülvi);
- "Grovv Audit and Consulting" MMC (direktor - Abdurahmanov Orxan);
- "L.B. Audit xidməti" MMC (direktor - Bayramova Lamiyə);
- "SM Audit and Consulting" MMC (direktor - Məmmədov Səbuhi);
- "Tax, Audit & Konsaltinq Servis" MMC (direktor - Abbasova Lalə);
- "TİD CONSULTING" QSC (direktor - Rzayeva Fidan).

Sərbəst auditorlar
- Hacaliyev Elşad Nuriq oğlu;
- Mikayılzadə Raqif Rami oğlu.

4. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**